**İndoneziyanın Bali şəhərində “3-cü Qaz Məlumatlarının Şəffaflığı”na dair konfrans keçirilmişdir.**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Sənaye və tikinti statistikası şöbəsinin baş məsləhətçisi Nərgiz Babayeva 2013-cü il 4-5 iyun tarixlərində Neft məlumatları üzrə Birgə Təşəbbüs (JODİ) tərəfdaşları (APEC, Avrostat, İEA, İEF, OPEC, OLADE və UNSD) və İndoneziyanın Energetika və Mineral Resursları Nazirliyinin təşkilatçılığı ilə İndoneziyanın Bali şəhərində təşkil olunmuş “3-cü Qaz Məlumatlarının Şəffaflığı”na dair konfransda iştirak etmişdir.

İndoneziyanın Bali şəhərində təşkil olunmuş “3-cü Qaz məlumatlarının şəffaflığı”na dair konfransın ilk günü qeyd edilmişdir ki, JODİ konkret olaraq enerjinin istehsalı və istehlakı üzrə proseslərin nəticələrini xarakterizə edir və bu təşəbbüs 70-ə yaxın ölkədən qazın təchizatı və tələbatına dair göstəricilər üzrə məlumatları toplamaqdan ibarətdir. Hal-hazırda JODİ-yə dünyanın təbii qaz təchizatı və tələbatının təxminən 80%-ni təmin edən 70 ölkənin aylıq məlumatları təqdim olunur.

Küveyt, Meksika, Tailand, Kanada, İndoneziya, Almaniya və digər ölkələrdən olan konfrans iştirakçıları mövzu ilə bağlı maraqlı məruzələrlə çıxış etmişlər.

Məruzələrdə JODİ - qaz sorğu cədvəlinin ölkələr üzrə operativ və düzgün doldurularaq təqdim olunma vəziyyəti, o cümlədən üç meyar – davamiyyətlilik, vaxtı-vaxtında təqdim edilmə və əhatəlilik üzrə iştirakçı ölkələrə verilmiş qiymətlər haqqında məlumat verilmişdir. Ekspertlər hər üç meyar üzrə Azərbaycanda işin yüksək səviyyədə təşkil olunduğunu vurğulamışlar.

Tədbirin ikinci günü “JODİ Qaz Manual” tövsiyələrin layihə versiyasının təqdimatına həsr olunmuşdur. Tövsiyələrin 8-ci fəsilində JODİ qaz məlumatlarının toplanması və tərtibinə dair Böyük Britaniya, Braziliya, Tailand və Azərbaycanın nümunələri yerləşdirilmişdir. Tövsiyələrin 8-ci fəslinin iki səhifəsində Azərbaycan statistikasının təcrübəsindən bəhs olunur. Bu fəsilin yaradılmasında əsas məqsəd məlumatların toplanmasında seçilmiş ölkələrin ən yaxşı təcrübələri ilə digər ölkələrin tanış olmasından ibarət olmuşdur.

Sonda JODİ təbii qaz sorğu cədvəlinin doldurulmasının əhəmiyyəti haqqında, sınaq cədvəllərini təqdim edən və etməyən ölkələrin siyahısı, cədvəllərin tam doldurulmasının səbəbləri ilə bağlı interaktiv müzakirələr aparılmışdır. Ekspertlər konfrans iştirakçılarına proqram təminatlarının istifadəsi zamanı yaranacaq hər hansı sualların cavablandırıması üçün JODİ üzrə veb foruma daxil olmalarını və müzakirələrdə fəallıq nümayiş etdirmələrini tövsiyə etmişlər.